# ŞAKİR ALBALIYEVİN 9-CU KİTABI

Bu günlərdə filologiya üzrə fəlsəfə doktoru Şakir Albalıyevin "Millilikdən bəşəri duyğulara (İsmayıl Məcidlinin lirik duyğulu dünyası)" adlı kitabı ("Maarif", 2022) işıq üzü görüb. Kitabda Aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent İsmayıl Qəzənfər oğlu Məcidlinin yaradıcılığı (kitabları) haqqında ayrı-ayrı vaxtlarda müxtəlif mətbu orqanlarda, o cümlədən "Kredo" qəzetində işıq üzü görmüş məqalələri yer almışdır.

Qeyd edək ki, kitabın bir bölümündə isə İsmayıl Məcidlinin yazılarından nümunələr, həmçinin Şakir Albalıyevə həsr etdiyi yazıları verilmişdir. Müəllif kitaba "ön söz" missiyasında yazdığı qeydlərində öz kitabı ilə bağlı bəzi faktlara işıq salır: "Bu kitab aqrar elmlər üzrə fəlsəfə doktoru, yazıçı-publisist İsmayıl Qəzənfər oğlu Məcidlinin elmi və bədii-publisistik yaradıcılığı fonunda yazılıb. Onun elmi və bədii kitabları işıq üzü gördükcə, həmin kitablardan aldığım təəssüratları müxtəlif mətbu orqanlarda bölüşmüşəm. Necə deyərlər, buradakı məqalələr kərpic-kərpic üst-üstə qalaqlanıb hörülmüş binaya bənzəyir. Hətta bir neçə nəfər də iməcilik edib bu binaya daş qoyub: Qələndər Xaçınçaylı (mərhum), Nəcibə İlkin, Təranə Şəms, Samir Dəmiroğlu, Köçəri Misirov. Məqsədim o oldu ki, İ.Məcidliyə həsr olunmuş bu kitabda digər müəllifləri də yazıları kənarda qalmasın, toplu halında bir yerdə olsun". Müəllif İsmayıl Məcidlinin kimliyini onun kitabları ilə təqdim etməyə çalışır. Elə bu səbəbdən də İ.Məcidlinin sözünə öz kitabı boyu daha çox önəm verir. Müəllif öz kitabının adına da açıqlıq gətirməyə çalışır. "Millilikdən bəşəri duyğulara" adlanan kitabın mahiyyəti daha dərin mətləblərdən xəbər verməlidir. Əlbəttə, bir kitabda, həm də daha çox elm adamı kimi tanınan, həm də kənd təsərrüfatı üzrə mütəxəssis kimi tanınan müəllifin bədii yaradıcılıqda bəşəri duyğulara nə dərəcədə yetə biləcəyini özünü ifadə baxımından hansı səviyyədə özünü təsdiq edəcəyini düşünmək bəlkə də mübahisəli görünər. Amma hər halda müəllif aqrar sahə üzrə mütəxəssisin əsərlərini təhlil müstəvisinə çəkir və elə kitabının əvvəlindəcə qənaətini də açıqlayır: "O ki qaldı kitabın adına - "Millilikdən bəşəri duyğulara" - İ.Məcidlinin yazdıqlarında müəllif olaraq onun milli mənliyi açıq görünür. Yeni milli-psixoloji çaların bariz nümunəsi ilə qarşılaşırıq onun bədii-publisistik əsərlərində. Müəllif olaraq onun xoşbəxtliyi ondadır ki, o, milli dəyərlərdən çıxış etsə də, şovinist düşüncədə, dar çərçivədə qapanıb qalmır, oxuculara bəşəri əhəmiyyətli humanist duyğular aşılayır". Bütün hallarda müəllif belə bir qənaətdədir ki, İ.Məcidli öz əsərləri ilə milli düşüncədə olan qələm adamıdır. O, çalışır ki, milli düşüncəni bəşəri dəyərlərə müvazi olaraq oxucuya aşılaya bilsin.




Müəllifin İ.Məcidlinin mənəvi imkanlarını öz oxucusuna çatdırmaq istəyi kitabın sonunadək yazılarda özünü göstərir. Ən başlıcası o, İ.Məcidlinin hekayələrini də oxuculara təqdim edir. Bu da hər bir oxucunun İ.Məcidlini tanımaq imkanlarını təmin edir. Bu, Şakir Albalıyevin sayca 9-cu kitabıdır. Müəllifə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

***Elvin KAMAL***

Kredo.- 2022- ci il.- 3 avqust.- S. 15.